# “Teknofest 2022”

# Pilotsuz Uçuş Aparatları

# MÜSABİQƏ HAQQINDA

( Yalnız Azərbaycan və Türkiyə Respublikasında təhsil alan tələbələr iştirak edə bilər)

## 1. GİRİŞ

Beynəlxalq "Pilotsuz Uçuş Aparatları" (PUA) müsabiqəsi tələbələr arasında aerokosmik sahəyə, pilotsuz uçuş aparatlarına marağın artırılması və bu sahədə fundamental uçuş bilik və bacarıqları formalaşdırmaq məqsədilə bir sıra ölkələrdə təşkil edilir. Bu müsabiqədə qarşıya qoyulan tapşırıqlar elektronika, mexanika, proqramlaşdırma kimi mühəndislik istiqamətləri üzrə nəzəri və təcrübi biliklərin tətbiqinə və inkişafına şərait yaradır. Bundan əlavə olaraq, iştirakçılar komandada işləmə, təqdimat və planlaşdırma kimi faydalı bacarıqlara yiyələnirlər.

Beynəlxalq "Pilotsuz Uçuş Aparatları" müsabiqəsi ali təhsil müəssisələrinin tələbələri üçün nəzərdə tutulub. Müsabiqənin şərtlərinə əsasən, komandalar tərəfindən uçuş aparatı dizayn edilir. Müsabiqədə komandalara özlərinin dizayn etdikləri PUA-ları nümayiş etdirmək şansı verilir.

## 2. MÜSABİQƏNİN MİSSİYASINA ÜMÜMİ BAXIŞ

Müsabiqədə iştirak edən komandalara missiya seçimi barəsində heç bir məhdudiyyət qoyulmur. Komandalar istənilən kateqoriyada (sabit qanadlı, multirotorlu, Vtol və s.) missiya seçimində sərbəstdir. Hər bir komandaya uçuş günü seçilmiş missiyanın həyata keçirilməsi üçün maksimum 5 dəqiqə vaxt verilir.

Uçuş sahəsi üçün 300 x 300 metr ərazi təyin olunmuşdur. Təhlükəsizlik məqsədilə uçuş sahəsindən bütün istiqamətlərdən 50 metr məsafədə aralıq ərazi nəzərdə tutulmuşdur. Uçuş üçün ayrılmış sahənin cari ölçüləri müsabiqənin "Video hesabat" mərhələsindən əvvəl elan ediləcək.

PUA- nın uçuşu zamanı icazə verilən maksimal uçuş hündürlüyü 120 metrlə məhdudlaşdırılmışdır. Təhlükəsizlik və hava şəraitini nəzərə alaraq, uçuşların qeyd olunan hündürlüklərdə aparılmaması məsləhət görülür.

Tələb olunan missiyanın icrası avtonom şəkildə həyata keçirilməlidir (qalxma və enmə əməliyyatları manual pilotaj vasitəsilə yerinə yetirilə bilər).

## 3. MÜSABİQƏDƏ İŞTİRAK ŞƏRTLƏRİ

Müraciətlər festivalın rəsmi səhifəsi www.teknofest.az vasitəsilə qəbul ediləcək. Müraciət etmək üçün 17.02.2022 tarixinədək anketi doldurmaq lazımdır.

Bu yarışda yalnız B kategoriyaya aid olan iştirakçılar daxil ola bilər .
“B” kategoriaya yalnız Azərbaycanda və Türkiyədə təhsil alan bakalavr/magistr tələbələri aiddir.
Komanda eyni ali təhsil müəssisəsində (bakalavr, magistr) təhsil alan tələbələrdən təşkil olunmalıdır.

Komanda 1 tələbənin komanda kapitanı seçilməsi ilə minimum 3, maksimum isə:

- yalnız bakalavr pilləsində oxuyan tələbələrdən ibarət komanda üçün – 6;
- yalnız magistr pilləsində oxuyan tələbələrdən ibarət komanda üçün – 3;
- bakalavr və magistr pilləsində oxuyan tələbələrdən ibarət komandalar üçün:
    - 4 bakalavr və 1 magistr;
    - 2 bakalavr və 2 magistr tələbədən ibarət ola bilər.

Müsabiqənin missiyasının uğurla yerinə yetirilməsi komandalar tərəfindən elektronika, mexanika, proqramlaşdırma (həm yerüstü, həm də uçuş proqram təminatı) və kommunikasiya üzrə bilik və bacarıqlar tələb edir – komandanın formalaşdırılması zamanı bunu nəzərə almaq tövsiyyə olunur.
Təşkilati işlərin koordinasiyası üçün komandaya ali təhsil müəssisəsi tərəfindən nümayəndə təyin olunmalıdır. Nümayəndənin vəzifələri aşağıdakılardır:

- Təşkilatçılar tərəfindən təyin edilmiş görüşlərdə komanda üzvlərinin iştirakını təmin etmək;
- Komandaya ehtiyacı olan ləvazimatların və emalatxananın təmin edilməsində köməklik göstərmək;

Komanda kapitanı komanda üzvləri tərəfindən seçilməlidir. Komanda kapitanının vəzifələri aşağıdakılardır:

- Komanda daxili və nümayəndə arasında koordinasiyanı təmin etmək;
- Layihənin gedişatına nəzarət etmək.

Nümayəndə müsabiqə zamanı komandaya texniki tapşırığın icrası ilə bağlı heç bir köməklik göstərməməlidir.
Hər komandaya təşkilatçılar tərəfindən komanda İD təqdim ediləcək.

Qeyd edək ki, layihənin gerçəkləşməsi üçün lazım olan avadanlıqların ümumi maliyyə dəyəri 700 $ məbləğini aşmamalıdır.

# 4. MÜSABİQƏNİN MƏRHƏLƏLƏRİ

Müsabiqə 4 mərhələdən ibarətdir.

## 4.1 “QEYDİYYAT” MƏRHƏLƏSİ

Müsabiqədə iştirak yalnız komanda şəklində mümkündür, iştirakla bağlı fərdi müraciətlər nəzərə alınmır. Müsabiqədə iştirak etmək istəyən komandalar elan olunmuş müddət ərzində qeydiyyatdan keçməlidir. Veb-səhifədə qeydiyyat forması Azərbaycan, İngilis və Rus dillərində mövcuddur.
Qeydiyyat zamanı müraciət formasındakı tələb olunan bütün məlumatlar qeyd olunmalıdır. Müsabiqədə iştirakla bağlı müraciəti təsdiq olunmuş komandalar www.teknofest.az veb-səhifəsi üzərindən elan ediləcək.

Qeydiyyat mərhələsini müvəffəqiyyətlə tamamlayan və yarışa şans qazanan komandalar “Missiya və komponent seçimi” mərhələsinə keçəcəklər.
Təşkilatçılar tərəfindən müsabiqə üzrə yeniliklər və dəyişiliklər barədə məlumat komandaların qeydiyyatdan keçdiyi elektron poçt ünvanına göndəriləcək. Bu məqsədlə, komandalara müntəzəm olaraq yoxladıqları elektron poçt ünvanı ilə qeydiyyatdan keçmək tövsiyə olunur.

## 4.2 “MİSSİYA VƏ KOMPONENT SEÇİMİ” MƏRHƏLƏSİ

İştirakla bağlı müraciəti təsdiq olunan komandalar “Missiya və Komponent seçimi” mərhələsinə şans qazanırlar. Bu zaman komandalar sərbəst şəkildə layihələndirməsini nəzərdə tutduqları PUA – nın hissələrini və missiyasının gerçəkləşdirilməsi üçün ehtiyac olan bütün komponentlərin ümumi siyahısını, həmçinin missiya haqqında ümumi məlumatı və müvafiq hesabatları özündə əks etdirən sənədi www.teknofest.az veb-səhifəsində müvafiq bölməyə əlavə etməlidir. “Missiya və Komponent seçimi” şablon sənədi mərhələ başlamazdan əvvəl www.teknofest.az veb-səhifəsində yerləşdiriləcək. Tələb olunan bütün zəruri komponentlər texniki dəstək təmin edilməklə komandaların verəcəyi siyahı əsasında ( komponentlərin ümumi dəyəri 700 $- ı aşmamaq şərti ilə) təşkilatçılar tərəfindən qarşılanacaq. Hazırlıq dəstəyi qeydiyyatı təsdiq olunan bütün komandalara (Beynəlxalq da daxil edilməklə) şamil edilir.

## 4.3 “VİDEO HESABAT” MƏRHƏLƏSİ

Bu mərhələdə komanda tərəfindən hazırlanmış PUA-nın düzgün yığılmasını təsdiq edən video görüntülər, missiya haqqında ətraflı məlumat və ilkin testlərdən əldə olunan nəticələr video hesabat şəklində qeyd edilir. Testlərin müvafiq ardıcıllıqla siyahısı, video hesabat mərhələsi başlamazdan əvvəl www.teknofest.az veb-səhifəsində müsabiqə üçün ayrılmış müvafiq bölmədə yerləşdiriləcək. Video Youtube və ya Vimeo-da paylaşıla bilər. Videonun adı (YouTube/Vimeo video naming formatında) “KomandaID_VHMPUA_2022” ilə verilməlidir. Layihənin təqdimat videosu link şəklində KYS sistemində komandanın şəxsi kabinetində qeyd olunmalıdır. Komandalar “Video hesabat” mərhələsi şablonunda verilən bəndlər üzrə testləri video şəklində qeyd etməlidir. Yüklənilən video sonradan dəyişdirilə və silinə bilməz. Videonun başlanğıcında ən az 1 komanda üzvü ad, soyadı və komandanın adı ilə təqdimata başlamalıdır. Videonun **maksimum uzunluğu 15 dəqiqə** olmalıdır.

Bu mərhələdə yekun model üçün “Azərkosmos”un münsiflər heyəti tərəfindən müvafiq qeydlər aparılaraq uçuşa buraxılmazdan əvvəlki vəziyyəti təyin edilir. Mərhələni uğurla başa vuran komandalar artıq “Uçuş və Uçuşdan sonrakı hesabat” mərhələsində iştirak şansı qazanırlar. “Video hesabat” mərhələsi “Azərkosmos” un münsiflər heyəti tərəfindən qiymətləndiriləcək və bu qiymətlər komandanın ümumi nəticəsinin **30%**-ni təşkil edəcək. Bu səbəbdən uçuş videosuna lazımi diqqət verilməlidir.

## 4.4 “UÇUŞ VƏ UÇUŞ SONRAKI HESABAT” MƏRHƏLƏSİ

Bu mərhələdə komandalar hazırladıqları modellərin təşkilatçılar tərəfindən təyin edilən ərazidə havaya buraxaraq missiyanı həyata keçirəcəklər.

Komandalara bu mərhələdə iştirak edərkən ehtiyat model və ya hissələrlə gəlmək tövsiyə olunur. PUA yerə endikdən sonra, komandalar uçuş haqqında məlumatları və modelin son vəziyyətini təsvir edən şəkilləri “Uçuş və Uçuş sonrakı” hesabat sənədinə müvafiq olaraq yerləşdirməli və ekspert komissiyasına təqdim etməlidir. Bu sənədin şablonu www.teknofest.az veb-səhifəsində müsabiqə üçün ayrılmış müvafiq bölmədə yerləşdiriləcək. “Uçuş və Uçuş sonrakı hesabat” mərhələsi ekspert

komissiyası tərəfindən qiymətləndiriləcək və bu qiymətlər komandanın ümumi nəticəsinin **50%** -ni təşkil edəcək.

## 5. UÇUŞ GÜNÜ DİQQƏT EDİLMƏLİ MƏQAMLAR

- Uçuşdan əvvəl uçuş üçün hazır olmaları barədə məlumat verən komandaların siyahısı hazırlanaraq növbəli qaydada uçuşun həyata keçirilməsi;
- Modelin "Video hesabat" mərhələsindəki görüntüsü ilə eyni olması;
- Uçuşa başlamadan öncə PUA-nın uğurlu uçuşunun təmin olunması üçün təhlükəsizlik testlərinə cəlb olunması (bu testlərdən keçməyən komandaların uçuşda iştirakı qadağandır);
- Komandalar uçuş trayektoriyasının qeyd olunmuş ərazidən kənara çıxmamasına diqqət etməlidir, əks təqdirdə uçuş uğursuz hesab olunur. Əgər bu hal baş verərsə, PUA "Fail- safe" modunda təhlükəsiz şəkildə yerə enməlidir;
- Komandalara 2 uçuş şansı verilir, lakin, ilk uçuş cəhdində komanda topladığı bal ilə razıdırsa, ikinci uçuş imkanından istifadəsi məcburi deyil;
- Uçuşa buraxılan PUA-nın ən gec 8 dəqiqə ərzində missiyaya başlaması tələb olunur. Verilmiş müddətdən artıq missiyanın başlaması mümkün olmadığı halda uçuş icazəsi növbəti komandaya verilməsi və komanda 2 uçuş imkanından birini itirmiş hesab olunur;
- İnsan sağlamlığı və ətraf mühitə zərər vermə ehtimalı olan faktorlardan yayınma;
- Uçuş təklükəsizlik testlərinə aşağıdakılar aiddir:
    - Modelin ümumi strukturunun etibarlı olması;
    - Model elektronikasının və hərəkət sistemlərinin işlək olması;
    - Radio siqnalların itməsi halında PUA – ların "Fail-safe" modunun əvvəlcədən quraşdırılmış olması;
    - Pər(lər) və mühərrik(lər) hissələrinin uçuşa yararlı olması və düzgün birləşdirilməsi;

- Naqil və birləşdirici komponentlərin qanunauyğun standartlarda seçilməsi;
- PUA-nın işəsalma/söndürmə, “Fail-Safe” və s. kimi idarəetmə əmrlərinin göndərilməsi üçün radioəlaqə məsafəsinin kifayət qədər olması;
- PUA batareyasının gövdə üzərində sabit şəkildə bağlanması.

## 6. MƏRHƏLƏLƏRİN TƏQVİMİ (Taymlayn)

**Cədvəl 1:**

| TARİX | TƏSVİR |
|---|---|
| 17.02.2022 | Müsabiqədə iştirak üçün müraciətin son müddəti |
| 06.03.2022 | “Missiya və komponent seçimi” mərhələsinin son günü |
| 08.05.2022 | “Video hesabat” mərhələsinin son günü |
| 24.05.2022 | “Uçuş və Uçuş sonrakı hesabat” mərhələsi |
| 26 - 29. 05. 2022 | Teknofest Azerbaijan 2022 |

* Sənəddə qeyd edilmiş tarixlər müsabiqənin təşkilatçıları tərəfindən dəyişdirilə bilər.

## 7. QİYMƏTLƏNDİRMƏ VƏ BALLARIN BÖLÜŞDÜRÜLMƏSİ

Aşağıdakı mərhələlər ayrılıqda qiymətləndirilərək ümumi qiyməti formalaşdırır: Hər mərhələ üçün komanda “Azərkosmos”un ən azı iki münsif heyəti tərəfindən qiymətləndirilir. Qiymətlər mərhələnin sonunda komandanın elektron poçt ünvanına göndərilir.

**Cədvəl 2:**

| Mərhələ | Faizlər |
|---|---|
| “Missiya və komponent seçimi” | % 20 |
| “Video hesabat ” | % 30 |
| “Uçuş və Uçuşdan sonrakı hesabat” | % 50 |

## 8. MÜKAFATLAR

Aşağıdakı cədvəldə göstərilən pul mükafatları Final kateqoriyasında münsiflər heyətinin qapalı və açıq səsverməsi vasitəsilə seçilən komandalara təqdim ediləcək. Həmçinin müsabiqə çərçivəsində qalib komandanın məsləhətçisi 600 USD məbləğinədək xüsusi pul mükafatına layiq görüləcək.

**Cədvəl3:**

| Kateqoriya | B Kateqoriya | Nümayəndə (Təmsilçi) |
|---|---|---|
| 1-ci yer | 4 000 USD | 600 USD |
| 2-ci yer | 2 000 USD | 400 USD |
| 3-ci yer | 1 000 USD | 200 USD |

- Uçuş mərhələsində iştirak edən komandalara xüsusi sertifikatlar və həvəsləndirici hədiyyələr təqdim olunacaq.

## 9. ÜMUMİ QAYDALAR

*Müsabiqədən kənarlaşdırma meyarları*

Komandaların yarışmada iştirakı aşağıda göstərilən meyarlar əsasında təşkilatçılar tərəfindən dayandırıla bilər:

- Digər komandaların sənədlərindən məlumatı özünə köçürmək;
- Layihənin şərtlərinə riayət etməmək;
- Mərhələlər üzrə tələb edilən hesabat sənədlərini vaxtında və müvafiq formada təqdim etməmək;
- Təşkilatçılar və münsiflər ilə kəskin mübahisə aparmaq;
- Modelin, onun hissələrinin layihələndirilməsində və yığılmasında komanda üzvü olmayan şəxslərin iştirakı;
- Müsabiqə ərzində komanda tərkibi qaydalarına riayət edilməməsi;

- Komandaların “Qeydiyyat” və “Video hesabat” mərhələlərində təqdim etdikləri missiyadan  fərqli missiya həyata keçirməsi;
- Uçuş mərhələsi üçün təyin edilmiş tarix hava şəraitindən asılı olaraq dəyişdirilə bilər. Həmçinin, hava şəraitinin gözlənilmədən dəyişilməsi müşahidə olunarsa və təşkilatçılar tərəfindən uçuşun davam etdirilməsi uyğun sayılmazsa, mərhələ yarıda dayandırılacaq və iştirak edə bilməyən komandalar üçün yeni vaxt təyin ediləcək. Uçuş tarixi dəyişdirildiyi halda ilk uçuş günü əlverişsiz hava şəraiti səbəbindən uğursuz nəticə göstərən komandaların itirilmiş balları bərpa ediləcək.
- Komandalar öz komanda rəhbərləri vasitəsilə müvafiq hakimə etiraz etmək hüququna malikdirlər. Etiraz daha sonra yazılı şəkildə təqdim edilmək şərtilə şifahi olaraq verilə bilər. Şifahi etirazlar 24 saat ərzində yazılı şəkildə bildirilməlidir. İstənilən halda, yazılı olmayan etirazlar nəzərə alınmayacaq. Etirazlar hakimlər heyəti tərəfindən araşdırıldıqdan sonra 72 saat ərzində yekunlaşdırılacaq.
- Qiymətləndirmənin nəticələri elan edildikdən sonra komanda rəhbərlərindən öz etirazlarını və əsaslandırmalarını yazılı şəkildə təqdim etmələri tələb olunur. Etirazlar contest@technofest.az e-mail ünvanından qəbul edilməlidir.
- Etiraz prosesi müsabiqənin nəticəsi elan olunduqdan sonra bir həftə - 7 gün ərzində aparılmalıdır. Əks halda etirazlar nəzərə alınmır.
- Məsləhətçinin rolu; tələbələrə öz təhsillərini planlaşdırmağa kömək etmək, onları akademik, sosial və mədəni məsələlərdə istiqamətləndirmək, bütövlükdə tələbə şəxsiyyətinin mental, sosial və emosional aspektləri ilə bir bütün olaraq inkişafın uyğun mühitin hazırlanmasına kömək etmək və s. vəzifə və xidmətlər. Komandada məsləhətçinin rolu layihədə lazım olacaq akademik dəstəyi təmin etmək, komanda üzvlərinə problemlərinin həlli yollarını tapmaq üçün istiqamət verməkdir.
- Müsabiqənin predmeti olan ideya işi komanda üzvü ilə birlikdə ərsəyə gələ bilər və bu ideya yalnızca komandaya məxsusdur, məsləhətçi bu mərhələdə ideyanın sahibi kimi qəbul edilməyəcək.
- Saytımızda ötən illərin hesabatlarında faydalanan komandalarımız istinad edilən cümlədən sonra sitat ifadəsini əlavə etməlidirlər. İstifadə edilən format: “İstifadə olunan ifadələr (İl, Müsabiqənin Adı, Kateqoriya, Komandanın adı) Nümunə Sitat: “Zəlzələ qurbanının dağıntı içərisində yerinin təyin

olunmaması onlar üçün dağıntıların çıxarılmasını və axtarışını ləngidən ən mühüm problemdir.” (2020, İnsanlıq üçün Texnologiya, Fəlakətlərin İdarə Edilməsi, X komandası)

- Hər bir iştirakçı lazımi ehtiyat tədbirlərini görməklə, öz həmyaşıdlarına və ətraf mühitə gözlənilən diqqəti göstərməklə mükəlləfdir.
- T3 Fondu və Teknofest Azərbaycan müsabiqənin müəyyən edilmiş qərəzsiz meyarlara uyğun olaraq keçirilməsi məqsədilə hər bir pozuntunun məhkəmə qərarı ilə nəticələnməsi və bütün tələblərə daha yaxşı cavab verməsi üçün spesifikasiyalara hər hansı düzəliş etmək hüququnu özündə saxlayır, lazımi təhlükəsizlik tədbirlərini təmin etmək və müsabiqə spesifikasiyalarının funksionallığını qorumaq.
- Son müraciət tarixindən sonra lazımi qiymətləndirmələri edən T3 Fondu və Teknofest Azərbaycan tələb olunan texniki bilik və bacarıqlara sahib kifayət qədər müraciətin əldə edilmədiyini nəzərə alaraq müsabiqəni ləğv etmək hüququnu özündə saxlayır.
- T3 Fondu, Teknofest Azərbaycan Təhlükəsizlik Qayda və Şərtləri bütün müsabiqə iştirakçılarına, nümayəndə heyətlərinə və bununla maraqlanan tərəflərə bildiriləcək. Yarışan bütün komandalar Teknofest Mühafizə və Təhlükəsizlik Qayda və Şərtlərində göstərilən, müvafiq kateqoriyalara xas olan təhlükəsizlik qaydalarına və şərtlərinə riayət etmək üçün məsuliyyət daşıyırlar. Bununla əlaqədar olaraq, təhlükəsizlik təlimatlarında öz əksini tapan təhlükəsizlik tədbirləri istisna olmaqla, istifadə edilən sistemlərdən qaynaqlanan əlavə tədbirlərin alınması iştirakçıların məsuliyyətindədir.
- T3 Fondu və Teknofest Azərbaycan müsabiqənin keçirilməsi məqsədilə təhlükəsiz mühiti təmin etmək üçün Teknofest Mühafizə və Təhlükəsizlik Qayda və Şərtlərini yetirməyən istənilən şəxs və malikdir. T3 Fond və Teknofest Azərbaycan heyətləri tərəfindən şərtlərin pozulması nəticəsində yaranan nümayəndə komandanı müsabiqədən yerinə kənarlaşdırmaq hüququna zrərə gəörə məsuliyyət daşımır.
- Müsabiqə ilə əlaqədar olaraq iştirakçı, T3 Fondu və ya Teknofest Azərbaycan tərəfindən müsabiqədən öncə və sonra ediləcək hər cür yazılı və vizual tanıtım, nəşr, sosial şəbəkə və internet yayımlarını qəbul edir və buna razılıq verir. Bundan əlavə iştirakçı dizaynlar, kodlar və istehsal olunmuş məhsullar

daxil lakin bunlarla məhdud olmamaq üzrə müsabiqə ilə əlaqədar ərsəyə gələn hər bir əqli mülkiyyət yalnız T3 Fondu və Teknofest Azərbaycana məxsusdur və iştirakçı bu artefaktlar üzərində hər hansı bir haqq və ya tələb hüququna sahib deyil. T3 Fondu və Teknofest Azərbaycanın bütün əqli mülkiyyəti müvafiq hesab etdiyi şəkildə ictimai istehlak üçün açıqlama hüququnu özündə saxlayır.

- İştirakçının hər hansı məhsulun əqli mülkiyyət hüquqlarını pozması və T3 Fondu və Teknofest Azərbaycana zərər verməsi vəziyyətində, bütün bu zərərlərin məsuliyyəti təmamilə iştirakçılara aiddir.
- Müsabiqədə iştirak etmək hüququ qazanan bütün komandalara rəsmi İştirakçı Sertifikatı veriləcək.

## 10. <u>ETİK QAYDALAR</u>

- Festival ərazisində və ya yarışma prosesində (hesabat mərhələləri, qiymətləndirmə prosesi və s.) ictimai əxlaqa zidd hal, hərəkət, çıxış və s. edən şəxslər təcili olaraq hüquqi proses başlanacaq və komanda T3 Fondunun hər cür yarış və fəaliyyətlərində ən az 2 il iştirak etməmək şərtilə bütün komanda kənarlaşdırılacaq.
- T3 Fondu və Teknofest Azərbaycan ilə ünsiyyətdə istifadə olunan dildə nəzərə alınmalı məqamlar aşağıdakılardır:
    - Kobud və nəzakətsiz söz və davranışlardan çəkinmək lazımdır,
    - Təhqir, təhdid və yalnış sözlərdən çəkinmək lazımdır,
    - E-mail, facebook, skype, messenger, whatsapp, twitter və s. kimi sosial şəbəkə üzərindən birbaşa hədəf göstərmək və təhqir etməkdən çəkinmək lazımdır,
    - Müraciət və etirazlarınızda orfoqrafiya qaydalarına, üsluba diqqət yetirmək lazimdır.
- Festival ərazisində digər komandaların fəaliyyətinə və motivasiyasına təsir edəcək vəziyyətlər, hərəkətlər, sözlər və s. nümayiş olunmamalıdır.

- Qonaqlama xidmətlərinin göstərildiyi yataqxana və onun ətrafında sosial əmin-amanlıq nəzərə alınmalıdır. Əks halda həmin şəxs haqqında məhkəmə prosesinin başlanması müvafiq qurumlar tərəfindən həyata keçiriləcək.
- Layihə və məhsulun hazırlanması prosesində hər cür axsaqlıqları nəzərə alaraq lazımi avandanlıq və materialların öncədən ehtiyatını depolamaq/saxlamaq, baş verəbiləcək axsaqlıqlar zamanı hissləri dəyişdirmək komandanın məsuliyyətidir. Digər komandadan məhsul tədarükü təmin edilməməlidir.
- Dil, din, fəlsəfi inanc, siyasi fikir, irq, yaş və cins ayrı-seçkiliyi qoyulmadan, festival ərazisində bərabər imkanlara mane olan davranış və hallara yol vermədən, Teknofest Azərbaycan təşkilat komitəsi tərəfindən təklif olunan bütün növ xidmətlərdə tələblərə uyğun olaraq tərəfsiz davranmağa diqqət yetirilməlidir.
- T3 Fondu, Teknofest Azərbaycan və digər şirkət, müəssisə, təşkilata aid mal və resurslardan təyinat və xidmət tələbləri xaric istifadə etməməyə və onları israf etməməyə diqqət yetirmək lazımdır.
- Festivalın fəaliyyətini asanlaşdırmaq, ehtiyaclarını ən səmərəli, sürətli və verimli bir şəkildə qarşılamaq, xidmət keyfiyyətini və festival məmnuniyyətini artırmaq üçün keçirilən fəaliyyətlərə dəstək vermək lazımdır.
- İştrakçılara, qohumlarına, dostlarına və ya təmasda olduqları şəxslərə və ya təşkilatlara verilən və festival ərazisindəki rəqiblərə təsir edən və ya onlara təsir göstərə bilən hər cür fayda və maliyyə və ya digər öhdəliklər və oxşar şəxsi maraqlara qarşı diqqətli olun.
- T3 Fondu və Teknofest Azərbaycan bina və nəqliyyat vasitələrindən və digər ictimai resurslardan istifadə edərkən israfçılığa yol verməmək, iş vaxtından, resurslardan, əmək və obyektlərdən istifadə edərkən səmərəli və qənaətcil fəaliyyət göstərmək lazımdır.
- T3 Fondu və Teknofest Azərbaycan komandasının üzvləri fəaliyyət zamanı öz öhdəliklərinə görə cavabdeh olmalı, korporativ qiymətləndirmə və nəzarətə açıq və hazır olmalı, məsləhətçilər məqsəd və hədəflərə uyğun olmayan davranış və korrupsiyanı önləmək üçün lazımi tədbirlər görməli, etik davranış prinsipləri mövzusu öyrədilməli, bu prinsiplərə əməl edilib-edilməməsi izlənməli və etik davranışa dair təlimatlar verilməlidir.

- Komanda üzvləri öz vəzifələrini yerinə yetirərkən çalışdıqları qurumlarla bağlı hər hansı öhdəlik, vəd və ya cəhdlər etməməli, aldadıcı və həqiqətə uyğun olmayan açıqlamalar verməməlidirlər.

## 11. MƏSULİYYƏT BƏYANNAMƏSİ

Türkiyə T3 Fondu və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyin Teknofest Azərbaycan təşkilat komitəsinə hər hansı bir elan, iştirakçı və ya diskvalifikasiya nəticəsində yaranan ziyan və zərərə görə heç bir şəkildə məsuliyyət daşımır. Türkiyə T3 Fondu və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasının qanunları çərçivəsində işləməsini təmin etmək üçün məsuliyyət daşıyır. Müsabiqə iştirakçılarının üçüncü şəxslərə vurduğu ziyana görə Türkiyə T3 Fondu və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyin Teknofest Azərbaycan Təşkilat Komitəsi həmçinin təşkilatın vəzifəli şəxsləri məsuliyyət daşıya bilməzlər.

**Türkiyə T3 Fondu və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf Nəqliyyat Nazirliyi yuxarıda qeyd olunmuş müsabiqə qaydalarında və onun razılaşdırılmış bütün spesifikasiyalarında hər hansı dəyişiklik etmək hüququna sahibdir.**